**UOT: 792.**

**Şəhla Heydərli**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Dissertant**
**e-mail: rejissor_71@mail.ru**

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ MİLLİ DƏYƏRLƏRİN ORİENTLƏŞMƏSİ

**Xülasə:** 90-cı illər Azərbaycanın mədəniyyəti tarixində inkişaf mərhələlərinin daha çox dinamikliyinin müşahidə olunduğu bir mərhələdir. Belə ki, sevindirici haldır ki, biz qloballaşma zamanı olduqca böyük sürətlə öz mədəniyyətimizi dünya miqyasına çıxarmışıq. Dünya mədəniyyətinin qapıları hər bir milli mədəniyyətə açıq olduğundan, onlar fəal bir şəkildə bir-birilərinə təsir göstərə bilərlər. Elə bunun nəticəsində hər bir milli mədəniyyət başqa mədəniyyətlərə öz cizgilərini verdiyi kimi, digər mədəniyyətlərdən də nələrisə qəbul edir. Odur ki, müəyyən dövr keçdikdən sonra mədəniyyətlər bir-biri ilə "qohumlaşır" onlar arasında oxşar aşkarlıqlar əmələ gəlir. Ölkəmizə dünya mədəniyyəti təsirsiz olmayıb.

**Açar sözlər**: orientləşmə, müstəqil, siyasi, sənət, inkişaf, teatr.

XX əsrin əvvəllərində sənətin və ədəbiyyatın yeni istiqamətdən inkişaf edib püxtələşməsində çoxlu sayda jurnalist, ədəbiyyatşünas, dramaturq və nasirlərin danılmaz xidmətləri var. Onlar müxtəlif yollara əl ataraq, yazdıqları əsərlərin bu günə gəlib çıxmasına çalışmışlar. Bu istiqamətdə böyük xidmətləri olan dramaturqlardan biri də Əbdürrəhim bəy Haqverdiyev idi. Haqverdiyevin yaradıcılığını araşdıran teatrşünas İnqilab Kərimov yazır: "Hələ teatrın mənasını camaat anlamadığı bir zamanda Ə.Haqverdiyev teatr mədəniyyəti uğrunda var qüvvə ilə çalışırdı. O, bir tərəfdən teatr truppaları yaradır, artistlərin ideya-bədii tərbiyəsi ilə məşğul olur, onların sənətkarlıq cəhətdən inkişafına çalışır, digər tərəfdən isə truppaları təşkilati cəhətdən möhkəmlətmək, repertuar işini qaydaya salmaq üçün səy göstərir – əsər yazır, üçüncü bir tərəfdən isə qadınların səhnəyə çıxmasına çalışırdı" (1). İnqilab Kərimovun bu kiçik cümləsi dövrü olduğu kimi təsəvvür edib, dərk etməyə imkan yaradır. Teatrşünasın fikirləriylə razılaşaraq qeyd etmək lazımdır ki, təkcə Əbdürrəhim bəy Haqverdiyev deyil, digər drama-

turqlar da teatrı yaradıb inkişaf etdirmək üçün əllərindən gələni etməyə çalışır, müxtəlif truppalar əsasında aktyorları öz başlarına cəm edib, sənətin inkişafı naminə bacardıqlarını əsirgəmirdilər.

Ə.Haqverdiyevlə eyni dövrü və vəziyyəti paylaşan Cəfər Cabbarlı da teatrın inkişafı naminə müxtəlif işlər görür, mədəniyyət və maarifləndirmə istiqamətində fəaliyyət göstərirdi. Cəfər Cabbarlı bir-birinin ardıyca müxtəlif mövzulu dram əsərlərini – "Sevil", "Aydın", "Oqtay Eloğlu", "Solğun çiçəklər", "Vəfalı Səriyyə", "Ədirnə fəthi" kimi əsərlərini qələmə alır. Teatrı bütün ruhuyla sevən ədib yazırdı: "Dramda xüsusi bir uzun həyat dəyişikliyi olduğu üçün musiqi və musiqiçinin orda ruhu vardır. Bundan başqa rəssamlıq, rəqs, heykəltəraşlıq – həpsi teatroda görülüyor. Teatro bütün sənəti birləşdirdiyi üçün həpsindən mükəmməl və yüksəkdir. Teatro bizə yaşanışı öyrədiyor" (2). Ağır ictimai-siyasi mühitdə fəaliyyətini dayanmadan davam etdirən Cəfər Cabbarlı irsini araşdıran Asif Rüstəmli yazır: "C.Cabbarlı şəxsiyyətinin böyüklüyünü, sənətinin qüdrətini şərtləndirən amillərdən biri də odur ki, bütün siyasi təzyiqlərə və təpkilərə baxmayaraq 30-cu illərin qasırğa önü Azərbaycanın qara cildli tarix kitabını vərəqləməyə nail olmuş, cəsarətli addım atmış, qaranlıq səhifələrə həqiqət işığı salmağı bacarmışdır" (3). Aparılan araşdırmalardan da məlum olur ki, nə Cəfər Cabbarlı, nə də dövrünün digər ədəbiyyatçı-maarifpərvərləri teatrın və mədəniyyətin formalaşmasına asanlıqla və rahatlıqla nail olmayıblar. Dövrün ağırlığı, müxtəlif siyasi qarşıdurmalar, qoçuların sənət xadimlərinə hücum və hədə-qorxularını nəzərə alsaq, mədəniyyətin hansı şəkil və formada bu günədək gəlib çıxmış olduğunu anlamış olarıq.

İttifaq respublikalarında getdikcə daha geniş və real konturlar alan milli-azadlıq mübarizəsi tarixin bütün inkişaf qanunauyğunluqlarının ziddinə 70 il duruş gətirmiş çürük bir sistemi kökündən aşırdı.

Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının Demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq, eləcə də "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpası haqqında" Azərbaycan Respublikasının Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutaraq 1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyi haqqında Konstitusiya aktını qəbul etdi. Qarşıda xalqımızı müstəqillik və demokratiyaya dəvət edən  bir yol vardı. Lakin bu yolla getməyə Azərbaycanda

taqət qalmamışdı.

Sovet imperiyasının hökmdarlıq etdiyi 70 illik dövr ərzində müəyyən hədlər daxilində inkişafımız üçün şərait yaradılsa da, mədəniyyət, iqtisadiyyat, təhsil sahəsində nailiyyətlər əldə olunsa da, xalqımız mənən özünü rahat hiss etmir, artıq bir dəfə qovuşmuş olduğu müstəqilliyə yetişmək üçün, aşkarda olmasa da daxilən çarpışırdı. Tarix geri dönmür, ancaq təkrar olunur. Azərbaycan Demokratik Respublikasının yaradıldığı tarixi şərait bir qədər başqa məzmunda, lakin daha əlverişli formada təkrarlandı. Əvvəlcə Baltikyanı respublikaların, sonra isə Rusiya, Belarusiya və Ukraynanın müstəqil dövlətlərə çevrilməsi və nəhayət, keçmiş SSRİ-nin dağılması nəticəsində 1991-ci il oktyabrın 18-də "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olundu.

90-cı illər bəşər mədəniyyəti tarixində qloballaşma probleminin aktuallaşdığı bir mərhələdir. Türklər bu termini "kürəsəlləşmə" sözü ilə ifadə edirlər və bizim fikrimizcə, bu kəlmə ilə təzahürün mahiyyətinin daha çox aydınlaşmasına yardımçı olurlar. Belə ki, biz qloballaşma zamanı olduqca böyük sürətlə öz mədəniyyətimizi dünya miqyasına çıxarırıq. Dünya mədəniyyətinin qapıları hər bir milli mədəniyyətə açıq olduğundan, onlar fəal bir şəkildə bir-birilərinə təsir göstərə bilərlər. Elə bunun nəticəsində hər bir milli mədəniyyət başqa mədəniyyətlərə öz cizgilərini verdiyi kimi, digər mədəniyyətlərdən də nələrisə qəbul edir. Odur ki, müəyyən dövr keçdikdən sonra mədəniyyətlər bir-biri ilə "qohumlaşır", onlar arasında oxşar aşkarlıqlar əmələ gəlir. Avropa ölkələri, məsələn, ona səs verdilər ki, sərhədlər maksimal dərəcədə şəffaflaşsın. Yəni müasir şərq məmləkətlərinin vətəndaşları heç bir maneəyə rast gəlmədən bütün Avropanı dolaşa bilərlər, bir şərtlə ki, onun dövləti Şengen müqaviləsinin üzvü olsun. Faktiki olaraq, bu proses haradasa millətlərin, milli fərqlərin aradan götürülməsinə doğru aparır.

Azərbaycan 90-cı illərdə birdən-birə çoxsaylı problemlərlə üzləşdi. Xarici ölkələrin rəsmi nümayəndələri ilə yanaşı, çoxsaylı xarici şirkətlərin iş adamları, turizm agentləri, alimlər, həkimlər, din xadimləri və sair peşə sahibləri Azərbaycanın dünya iqtisadi məkanına inteqrasiyasını sürətləndirirlər. Lakin bu inteqrasiya eyni zamanda Azərbaycanın dünya fikir məkanına dünya əqidə məkanına inteqrasiyası demək idi. 90-cı illərdə Azərbaycan öz müstəqilliyi, öz demokratiyası ilə birgə Avropa düşüncə məkanına daxil olurdu və bu aspektdə Şərq-Qərb dixotomiyası bir daha öz gerçəkliyini sübuta yetirirdi. Azərbaycanın dünya

fikir məkanına inteqrasiyası həm də internet vasitəsilə reallaşırdı. 2000-ci illər üçün Azərbaycan kompüterləşdirilmiş bir məmləkətə çevrilir. Bu imkan verir ki, müxtəlif sahələrin mütəxəssisləri istənilən informasiyanı internet səhifələrindən əldə etsinlər.

Bütün bu deyilənlərdən aşkarcasına görünür ki, 90-cı illər Azərbaycan tarixinin ən mürəkkəb illəri cərgəsindədir. Öz mürəkkəbliyinə görə bu illəri Azərbaycan tarixinin 1918-1920-ci illərdəki müstəqillik dövrü ilə müqayisə etmək mümkündür. Hərçənd ki, 90-cı illər hadisələrinin Azərbaycan üçün pozitiv məqamları da vardı ki, biz bu məqamlardan hələ əvvəllərdə danışmışıq, milli oyanış, milli özünüdərk məsələləri üzərində dayanmışıq. 90-cı illərdə idrak, şüur, təfəkkür dəyişirdi, dəyərlər, zövqlər, orientirlər dəyişirdi. Cəmiyyət sovet dönəmindən sonra qloballaşma ilə qarşılaşmışdı. 90-cı illərdə Azərbaycan mədəniyyəti özünün ən çətin tarixi mərhələsini yaşamaq məcburiyyətində qalır. İqtisadi vəziyyət ucbatından bu dövrdə mədəniyyət sahələrinin maliyyələşdirilməsində müəyyən maraqlı proyektlərə qrantlar verilirdi. Lakin teatr həmin çağlarda bu qrantlardan çox az bəhrələnə bilir. Yalnız muğam, xalçaçılıq, rəssamlıq dünyaya uğurla inteqrasiya edə bilirdi.

Məhz 90-cı illərdə dövlət teatrlarının sayı, sosial-iqtisadi vəziyyətin problemlərinə baxmayaraq xeyli artdı. Bu isə teatrlara onların mövcudluğu üçün bir təminat idi.

Təsadüfi deyil ki, 90-cı illərdə müxtəlif teatrlarda hazırlanmış tamaşalar öz arxitektonik quruluşu etibarilə qəribə şəkildə bir-birinə bənzəyirdilər. Teatrşünas Məryəm Əlizadə elə 90-cı illərdə əbəs yerə yazmırdı ki, "çağdaş rejissura olduqca mürəkkəb və namünasib vəziyyətdədir: siyasi-iqtisadi proseslərin mənfi (və hesab edirik ki, müvəqqəti) təsirindən" formalaşmış "maddi-texniki imkansızlıq, təchizatın kasıblığı və texnologiyanın geriliyi" fikri ilə özünü istifadədən ötrü şərait yaratmır. Təbii ki, bu fikirlə razılaşmamaq qeyri-mümkündür. Amma yanaşı olaraq qeyd edək ki, teatr bu dövrdə zamanla ayaqlaşa bilmirdi, hadisələr burulğanında heç cür öz yerini, mövqeyini müəyyənləşdirə bilmirdi. Elə ona görə də teatr tamaşaçıya maraqlı deyildi, onu nə əyləndirməyi, nə də tərbiyələndirməyi bacarırdı. Bu isə sənətin mühüm bir qanununun pozulduğunu diqqətə çatdırırdı. Sənət, o cümlədən teatr heç kimdən asılı olmamalıdır. Sənət yalnız bir mənəvi əxlaqi imperativə tabedir: hər şey həqiqətə xidmət etməlidir. Teatr öz ictimai-sosial mövqeyi ilə oynayanda və ya kiminsə pul kisəsindən asılı olanda

cəmiyyətdə öz nüfuzunu itirir. Bunun da mühüm bir səbəbi var: teatr xalqa məxsusdur və həmişə xalqın mənafeyi mövqeyindən, ali həqiqətlərin mövqeyindən çıxış etməlidir.

Yuxarıda da qeyd etdiyimiz kimi, siyasi-sosial ictimai problemlərin bir-birinin ardıyca ölkənin bütün sahələrinə göstərdiyi təsir mədəniyyətdən də yan keçmir. Mədəniyyətin dövrlə qarşılıqlı əlaqəsinin olması, siyasi təsirlərə daha tez məruz qalması heç kəsdən gizli deyil. Sənətkarlar dövrün nəbzini tutaraq, öz sənət əsərlərində, dramaturji yaradıcılıqlarında, kino və teatr sahəsində siyasi-ictimai problemləri sərgiləyirlər. 90-cı illərdə isə Azərbaycanın siyasi-ictimai-sosial vəziyyəti elə də ürək açan olmur. Respublikada bir-birinin ardıyca gözlənilməz və xoşagəlməz hadisələrin yaşanması, Qarabağ problemi, hakimiyyətdə ciddi dəyişikliklərin birdən-birə və sürətlə həyata keçirilməsi, təbii ki, bir ölkənin bütün sahələrində qabarıq şəkildə özünü göstərəcəkdi. Mədəniyyətin bütün sahələrində olduğu kimi, teatr sənətində də bütün bu proseslərin kəskin və ciddi təsirləri özünü göstərməyə başlayır. Dövrün ab-havası bütün sahələrdə öz təsirini birmənalı şəkildə göstərir.

**Ədəbiyyat siyahısı:**

1.İ.Kərimov. Ə.Haqverdiyev və teatr. Renessans-A, Bakı: 2016, s.65

2.Cəfər Cabbarlı. Cib dəftərçəsi, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Arx.-20, Q-18, (410), s.v.232. səh 50

3.A.Rüstəmli. C.Cabbarlı: Həyatı və mühiti, Bakı, "Elm" 2009, s.v.416, səh 359

4.İsrafilov İ. A.İskəndərovun teatrı. Bakı, Mars-Print 2001.

5.İsrafilov İ. Zaman Rejissor Poetika. Bakı, Elm, 1999.

6.İ.Kərimov. Ə.Haqverdiyev və teatr. Renessans-A, Bakı: 2016

7.İlham Rəhimli. Azərbaycan teatr tarixi, Bakı 2004

8.Vəliyev Ə. Teatr sənətimiz: dünən, bu gün, sabah...

9.Məmmədov M., Nemətov Z. Rejissor işi haqqında. Elm və təhsil, Bakı-2014

10.Əfəndiyev T. Mədəniyyətdə tarixilik və müasirlik.

**Шахла Гейдарлы**

## ОРИЕНТАЦИЯ НАЦИОНАЛЬНЫХ ЦЕННОСТЕЙ В ПЕРИОД НЕЗАВИСИМОСТИ

**Резюме:** 90-е годы-это этап в истории культуры Азербайджана, где наблюдается большая динамика этапов развития. Отрадно, что в ходе глобализации мы с огромной скоростью вывели свою культуру на мировой уровень. Поскольку двери мировой культуры открыты для каждой национальной культуры, они могут активно влиять друг на друга. В результате каждая национальная культура принимает что-то от других культур, так же как и от других культур. Поэтому по прошествии определенного периода культуры «сродни» друг другу, и между ними возникают сходные открытия. Мировая культура никогда не оказывала влияния на нашу страну.

**Ключевые слова**: ориентация, независимая, политическая, искусство, развитие, театр.

**Shahla Heydarli**

## ORIENTATION OF NATIONAL VALUES ON THE STAGE OF INDEPENDENCE

**Summary**: The 90s are a period in the history of Azerbaijani culture when the stages of development are more dynamic. It is gratifying that we have rapidly brought our culture to the world stage during globalization. Because the doors of world culture are open to every national culture, they can actively influence each other. As a result, each national culture accepts something from other cultures, just as it gives its features to other cultures. Therefore, after a certain period of time, cultures are "related" to each other, and similar revelations emerge between them. World culture has not been ineffective in our country.

**Key words:** Orientation, independent, political, art, development, theater.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 25. 02. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**sənətşünaslıq üzə fəlsəfə doktoru, baş müəllim Elçin Cəfərov**